# Kazus

A və B yaşadığı kəndin yaxınlığında kənd təsərrüfatı üçün gübrə hazırlayan və ekoloji cəhətdən yüksək təhlükə mənbəyi hesab edilən bir zavod fəaliyyət göstərirdi. Bu zavodun tullantıları müəyyən qədər külək vasitəsilə həmin kəndə gətirilirdi. Bu zavod ölkənin yerli qanunvericiliyi ilə yüksək risk dairəsinə aid obyektlər siyahısına aid idi və belə hallarda, qanunvericilik yerli icra strukturlarından zavodun ziyanlı tullantıları, risklər, təhlükəli qəza halında tətbiq edilən prosedur haqqında yaxınlıqda yaşayan sakinləri məlumatlandırmağı və qəza nəticələrini önləyən tədbirlər həyata keçirməyi tələb edirdi. Yerli strukturlar bütün önləyici tədbirləri həyata keçirsələr də, yeli sakinləri qeyd edilən hallarla bağlı məlumatlandırmamışdılar.

A və B bir neçə ildən sonra həmin zavodun sağlamlıq üçün təhlükəli olmasını bildilər,  həmin dövlətdən şikayət edərək, onların 10-cu maddə ilə nəzərdə tutulan məlumat almaq azadlıqlarının pozulduğunu iddia etdilər.

Sual:

1) A və B-nin şikayəti 10-cu maddə altında qəbuledilən sayıla bilərmi?

2) Digər hansısa maddənin pozulduğu barədə versiyanız varmı?

*Hazırladı: Sadiq Bağırov*